**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

**QƏRAR № 5**

Bakı şəhəri, "02" 08 2016-cı il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası Rauf Əli oğlu Pənahovun sədrliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının sədri cənab Eldar Nuriyevin Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış 14.07.2016-cı il tarixli, 27/1915 nömrəli və 27/1916 nömrəli məktubları ilə göndərilmiş Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasının "Siqma" kiçik müəssisəsinin (VÖEN-1800193171) hüquqlarını təmsil edən vətəndaş Məmmədzadə Fərid Faiq oğlunun şikayəti ilə bağlı 12.07.2016-cı il tarixli, 8 nömrəli qərarına baxaraq

**M Ü Ə Y Y Ə N   E T D İ**

Araşdırma zamanı müəyyən edilmişdir ki, Bakı Şəhər İcra Hakimiyyətinin 02.02.1998-ci il tarixli, 75 nömrəli sərəncamı və 10477 nömrəli inşaat pasportu əsasında Nizami rayonu, Babək prospekti, 2222-ci məhəllədə "Siqma" firmasına ofis binasının layihələndirilməsi və tikintisi üçün 216 kv/m torpaq sahəsi ayrılmışdır. "Siqma" firması tərəfindən təqdim olunmuş ofis binasının işçi layihəsi 16.09.1998-ci il tarixli, 18/0409-805 nömrəli məktubu ilə razılaşdırılmışdır.

Lakin "Siqma" firmasının rəhbərliyi 02.02.1998-ci il tarixli, 75 saylı sərəncamın 2.6-cı bəndinin tələblərini pozaraq tikintini qeydiyyatdan keçirmədən və tikintiyə icazə sənədi almadan ona ayrılmış 216 kv/m torpq sahəsində ofis binasının tikintisini həyata keçirmişdir.

Eləcə də firmanın direktoru tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinə göndərilən müraciət məktubunda köhnə layihənin yenisi ilə əvəz olunması qeyd edilmiş, lakin yerində baxış zamanı məlum olmuşdur ki, firmaya abadlıq üçün nəzərdə tutulan sahədə ikinci ofis binasının layihələndirilməsi xahiş edilmişdir.

"Siqma" firması üçün tərtib olunmuş 10477 nömrəli inşaat pasportunun tərkib hissəsi olan 20.07.1998-ci il tarixli, 95/205 nömrəli ayrıc aktında abadlaşdırılma üçün nəzərdə tutulan 576 kv/m torpaq sahəsində yeni ikinci ofis binasının tikintisi üçün layihə razılaşdırılmasına dair Bakı Şəhər İcra Hakimiyyətinə təqdim olunmuş layihədə inşası nəzərdə tutulan ofis binasının baş planında Babək prospektindən yolun mühafizə

zolağına qədər olan məsafə gözlənilməmiş, obyektin yerləşdiyi ərazinin şəhərsalma əsaslandırılması və sözügedən torpaq sahəsinin həmin firmaya məxsusluğu barədə heç bir hüquqi sənəd təqdim edilməmişdir.

Həmçinin, layihələndirilən ikinci ofis binasının tutduğu ərazi ayrıc aktında göstərilən abadlaşdırma üçün nəzərdə tutulan sahədən, hətta ondan kənara çıxmış, qonşu sahədə mövcud qeyri-yaşayış obyektinin təbii işıqlandırılması üçün qoyulmuş pəncərələrin qarşısı tamamilə kəsilmiş, binalar arasında ara məsafəsi saxlanılmamış, bununla da Şəhərsalma və Tikinti Məcəlləsinin 57-ci maddəsinin tələblərini pozmuşdur.

Göstərilənlər nəzərə alınmaqla yalnız abadlaşdırma üçün nəzərdə tutulmuş sahədə ikinci ofis binasının tikintisi Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən məqsədəuyğun hesab edilməmişdir. Hazırda ölkə rəhbərliyinin bilavasitə göstəriş və tapşırıqlarına uyğun olaraq, Bakı şəhərində genişmiqyaslı abadlıq və quruculuq işləri vüsət almış, bu tədbirlər çərçivəsində paytaxtda ekoloji tarazlığın bərpa edilməsi, şəhər sakinlərinin asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədi ilə yaşayış və qeyri-yaşayış sahələrinin sökülərək yeni park-bağ komplekslərinin inşası həyata keçirilmişdir. Belə bir şəraitdə, hüquqi və fiziki şəxslər tərəfindən abadlaşdırma üçün nəzərdə tutulmuş ərazinin təyinatının dəyişdirilərək tikinti məqsədləri üçün istifadə olunmaqla, bu ərazidə tikinti və şəhərsalma normalarına uyğun olmayan hər hansı ofis binasının inşa edilməsi qətiyyən yol verilməzdir.

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının 12.07.2016-cı il tarixli, 8 nömrəli qərarında vurğulandığı kimi, Siqma" kiçik müəssisəsinin Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış müraciətlərinə baxılmaq üçün göndərilmiş icraçılar tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunun və "Vətəndaşların müraciətləri haqqında" qanununun tələbləri pozulmaqla gec cavab verildiyi, tam və dolğun cavab verilmədiyi məlum olmuşdur.

Göstərilənlər və Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının sədri cənab Eldar Nuriyevin Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış 14.07.2016-cı il tarixli, 27/1915 nömrəli məktubunda qanun pozuntularına yol vermiş təqsirli şəxslər barəsində müvafiq tədbirlərin görülməsi barədə müddəaları nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.3-cü bəndini rəhbər tutaraq,

**QƏRARA ALINDI:**

1. "Siqma" kiçik müəssisəsinin (VÖEN-1800193171) hüquqlarını təmsil edən vətəndaş Fərid Məmmədzadənin müraciəti təmin edilməsin.
2. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu Qərarın surətini "Siqma" kiçik müəssisəsinin hüquqlarını müdafiə edən vətəndaş Fərid Məmmədzadəyə göndərsin.

3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduğuna görə, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhər ərazisinin tikinti-planlaşdırma idarəsinin baş mütəxəssisi Məhi Həsən oğlu Tağıyevə töhmət elan edilsin.

4. Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinə qərarın 3-cü bəndinin qanunvericiliyə müvafiq qaydada icrasının təmin edilməsi, gələcəkdə bir daha belə halların təkrarlanmaması ilə bağlı zəruri təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi tapşırılsın.

5. İşin nəticəsi barədə Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasına məlumat verilsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədri** **Rauf Pənahov**